

# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

# Avropa iki ildir Azərbaycan qazını alır

## Prezident İlham ƏLİYEV: "Cənub qaz dəhlizi" layihəsi başa çatıb, bizim işimiz isə davam edir"

İki il əvvəl - 2020-ci il dekabrın 31-də TAP (Trans-Adriatik Qaz Boru Kəməri) Azərbaycan qazını Avropaya çatdırdı. Qoca qitə yeni mənbədən, yeni marşrutla mavi yanacaq aldı.

TAP-ın işə düşməsi "Cənub qaz dəhlizi"nin qələbəsi idi. Layihənin sonuncu seqmenti olan bu kəmərin təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulmuşdu. Xəttin çəkilişi bir neçə il davam etdi və onun istifadəyə verilməsi ilə "Cənub qaz dəhlizi" tam sistem kimi işə düşdü. 3500 kilometrlik bu dəhliz Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı Gürcüstandan keçməklə Türkiyəyə və oradan da Avropaya daşıyan üç kəmərdən - genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri), TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan ibarətdir.

Qeyd edək ki, TAP-ın səhmdarları bp (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz) şirkətləridir.

TAP uzun məsafə qət edərək Azərbaycan qazını İtaliyanın cənubuna, bu ölkədən də Qərbi Avropaya çatdırır. Belə ki, bu, uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir. Xəttin bir neçə kilometrlik hissəsi İtaliyada quru sahəyə çıxır. Burada kəmər "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsi ilə birləşir. Boru xətti iki ildir fasiləsiz və təhlükəsiz fəaliyyət göstərir.

Bu il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması ilə bağlı plenar iclasdakı çıxışında Prezident İlham Əliyev Azərbaycan qazının ixracının getdikcə artması və diversifikasiyası barədə demişdir: "Ötən il Azərbaycanın Avropa İttifaqı bazarına təbii qaz ixracı 8,2 milyard kubmetr təşkil etmişdir, bu il 11,3 milyard kubmetrdir. Növbəti il onun həcmi ən azı 11,6 milyard kubmetr olacaq. Gələn il Azərbaycandan ixrac ediləcək təbii qazın ümumi həcmi təxminən 24 milyard kubmetr olacaq. Müqayisə üçün 2021-ci ildə o, 19 milyard kubmetr təşkil edirdi. Dünən Dövlət Neft Şirkəti və "Romqaz" 2023-cü il yanvarın 1-dən Azərbaycandan Rumıniyaya qazın təchizatı barədə müqavilə imzaladılar. Beləliklə, Azərbaycan özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirir. Bu, hamı üçün uduşlu vəziyyətdir, çünki Avropaya öz enerji təhlükəsizliyinin qorunması üçün qaz lazımdır, Azərbaycanın isə özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı var".

Məlum olduğu kimi, TAP-la ilk dövrlərdə Avropaya ildə 10 milyard kubmetr qaz çatdırılması nəzərdə tutulmuşdu. Sonrakı illərdə ixrac olunan mavi yanacağın həcminin artırılacağı da istisna təşkil etmirdi. Lakin istehlakçıların qaza tələbatının artması bu məsələni xeyli aktuallaşdıraraq günün tələbinə çevirdi. Odur ki, son dövrlər ən çox müzakirə olunan məsələlərdən biri TAP-ın genişləndirilməsidir.






Cari ilin iyul ayında Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunda da qaz ixracının artırılması və bununla əlaqədar dəhlizin genişləndirilməsi məsələsi önəmli yer tutur. Bu barədə bəyanatında Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen deyib: "Biz Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmini ikiqat artıracağıq. Bu memorandum vasitəsilə biz "Cənub qaz dəhlizi"nin genişləndirilməsi ilə bağlı üzərimizə öhdəlik götürürük. Bu, artıq Avropa İttifaqı üçün çox vacib təchizat marşrutudur və onun vasitəsilə ildə 8 milyard kubmetr qaz nəql edilir. Biz bir neçə il ərzində onun ötürücülük imkanını 20 milyard kubmetrə çatdıracağıq. Gələn ildən biz 12 milyard kubmetr göstəriciyə çatacağıq".

Artıq Azərbaycan təbii qazını Bolqarıstana nəql edəcək Yunanıstan-Bolqarıstan İnterkonnektorunun (IGB) açılışı da olub. IGB-nin reallaşması TAP-ın inkişafında mühüm bir mərhələnin başlanğıcı, "Cənub qaz dəhlizi"nin yeni qollarla şaxələnməsinin göstəricisi kimi dəyərləndirilir. Xatırladaq ki, "Bulgargaz EAD" "Şahdəniz-2" çərçivəsində ildə 1 milyard kubmetr qazın alınması ilə bağlı 2013-cü ilin sentyabrında 25 illik saziş imzalayıb. 2019-cu ilin mayında isə Bolqarıstanın Kirkovo bölgəsində interkonnektorun təməlqoyma mərasimi keçirilib.

IGB-nin açılışı Bolqarıstanın, ümumən Cənub-Şərqi Avropanın şaxələndirilmiş enerji təchizatında, istehlakçıların sərfəli və təmiz enerjiyə çıxışında strateji əhəmiyyətli hadisədir. Başqa sözlə, IGB-nin qarşıdakı illərdə "Cənub qaz dəhlizi"nin genişləndirilməsi istiqamətində yeni layihələrin müjdəçisidir. Məsələn, bu yaxınlarda ölkəmizdə işgüzar səfərdə olan Serbiya Prezidenti Aleksandar Vuçiç mətbuata bəyanatla çıxış edərkən demişdir: "Sözsüz ki, bizim enerji sahəsi ilə bağlı əməkdaşlıq etməli çox məsələlərimiz var. Biz artıq özümüzün ötürücü sistemlərimizin inşası, inkişafı yollarını müzakirə etdik ki, Rumıniya və Macarıstana sualtı xətlə nəql olunacaq elektrik enerjisini əldə edək və özümüzün necə enerji benefisiarları ola biləcəyimizi nəzərdən keçirək. Biz Bolqarıstan və Şimali Makedoniya ilə birlikdə inşa etməyə hazırlaşdığımız interkonnektorlar vasitəsilə Azərbaycan qazını əldə etməyin yolları barədə müzakirə apardıq. Bütün bunlar bizim üçün vacibdir".

Rumıniya isə artıq yeni ilin ilk günündən Azərbaycandan qaz alacaq. SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) və "Romgaz S.A." arasında ölkəmizdən Rumıniyaya qaz tədarükünə dair müqavilə imzalanıb. Müqavilə 2023-cü il yanvarın 1-dən etibarən təbii qazın TAP kəmərinin Yunanıstan-Komotini çıxış nöqtəsindən Yunanıstan-Bolqarıstan İnterkonnektoru vasitəsilə planlı nəqlini nəzərdə tutur.

Azərbaycan qazının Avropada yeni alıcıya çatdırılmasını təmin edən bu müqavilə də ixracın şaxələndirilməsi üzrə strateji hədəflərə yönəldilir.

"Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının bu ilin fevral ayında Bakıda keçirilən 8-ci toplantısında Prezident İlham Əliyevin dediyi kimi: "Cənub qaz dəhlizi" layihəsi başa çatıb, bizim işimiz isə davam edir".

*Flora SADIQLI,*
*"Azərbaycan"*